**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATINDA KOMEDİYA

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Ruqiyyə Bəhrəm qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Bella Sirac qızı Musayeva**

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü,
filologiya elmləri doktoru, professor
**Tehran Əlişan oğlu Mustafayev**

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
**Şöhrət Nüsrət qızı Məmmədova**

filologiya elmləri üzrə fəlsəfə doktoru
**Leyla Fərhad qızı Məmmədəliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən FD 1.31 qeydiyyat nömrəli Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor
**Rafael Baba oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: ____________ filologiya elmləri üzrə fəlsəfə doktoru
**İlhamə Mürsəl qızı Gültekin**

Elmi seminarın sədri: ____________ filologiya elmləri doktoru, professor
**Cəlil Qərib oğlu Nağıyev**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Ədəbiyyat hər bir dövrdə cəmiyyətin ictimai şüurunun formalaşmasında, insanların mənəvi təkamülünün inkişafında, təlim-tərbiyəsində böyük rol oynamışdır. Bu səbəbdən bütün dövrlərdə ədəbiyyatın, xüsusilə də dramaturgiyanın təməlində maarifçilik ideyası dayanmış, cəmiyyətin inkişafı ilə paralel olaraq bu missiya təkmilləşərək yeni məzmun və formalar qazanmışdır. Məhz bu missiyadan irəli gələrək maarifçi, realist Mirzə Fətəli Axundov dramaturgiyanın əsasını komediya janrı ilə qoymuş, bu janrın imkanlarından yararlanaraq insanların maariflənməsinə çalışmışdır. Çünki bu funksiyanı ancaq komediyanın özəyini təşkil edən gülüşlə həyata keçirmək olardı, yalnız gülüşlə insanların mənfi cəhətlərini özlərinə göstərmək, onları mənəvi cəhətdən tərbiyələndirmək olardı. Mirzə Fətəli Axundov insan xarakterinin dərinliklərinə nüfuz edərək cəmiyyətin müsbət və mənfi cəhətlərini, doğru və yanlış davranış modellərini nümayiş etdirmək məqsədilə dramaturgiyanı ən təsirli vasitə kimi seçmiş, bu istiqamətdə komediya janrının inkişafına xüsusi önəm vermişdir.

Mirzə Fətəli Axundovun əsasını qoyduğu bu missiyanı sonrakı dövrlərdə Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Süleyman Rüstəm kimi dramaturqlar davam etdirdilər. Dramaturgiya sahəsində zəngin yaradıcılıq irsi formalaşdıran bu sənətkarlar Azərbaycan ədəbiyyatının və milli komediya ənənəsinin inkişafında mühüm rol oynamışlar. Onların əsərləri həm ölkə daxilində, həm də xarici ölkələrdə teatr səhnələrində nümayiş etdirilərək Azərbaycan dramaturgiyasının təbliğinə xidmət etmişdir.

XIX–XX əsr Azərbaycan dramaturgiyası və komediya nümunələri yarandığı dövrdən etibarən ədəbiyyatşünasların və teatr nəzəriyyəçilərinin diqqət mərkəzində olmuş, müxtəlif metodoloji yanaşmalar əsasında araşdırılmış və elmi tədqiqatların obyektinə çevrilmişdir. Feyzulla Qasımzadə, Əziz Mirəhmədov, Nadir Məmmədov, Yaşar Qarayev, Arif Səfiyev, Abbas Hacıyev, Cəfər Cəfərov, Mikayıl Rəfili, kimi nəzəriyyəçilər bu dövr dramaturgiyası ilə bağlı elmi əsərlər qələmə almışlar.

Hər bir ölkənin ictimai-siyasi, sosial-iqtisadi vəziyyətində baş verən hadisələr, dəyişikliklər onun mədəniyyətinə, ədəbiyyatına təsirsiz ötüşməmişdir. Sovet hakimiyyətinin ilk illərində müəyyən sayda kiçik həcmli komediyalar yazılıb səhnələşdirilsə də, komediyanın inkişafı üçün əsas zəmin 1950-ci illərin ikinci yarısından sonra yarandı. "*Buna qədərki dövrdə isə sosrealizm dövrünün yaratdığı çətinliklər, bu illərdə geniş yayılmış "konfliktsizlik", yəni ictimai toqquşmaların, gülüş doğuran konfliktlərin yazılmasının qadağan olunması məsələsi sayılıb-seçilən komediya nümunələrinin yaranmasına mane olmuşdur*".[1] Lakin 50-ci illlərdən başlayaraq müstəqillik dövrünə qədər olan qısa bir müddətdə Sabit Rəhman, Altay Məmmədov, Ənvər Məmmədxanlı, Mirzə İbrahimov və digər yazıçıların əsərləri yaranmış, müxtəlif teatrlarda tamaşaya qoyulmuşdur. Bu dövrdə komediya yaradıcılığı ilə janrın bədii-estetik imkanlarını daha da genişləndirən, ictimai həyatın dərin qatlarında baş verən hadisə və prosesləri ustalıqla əks etdirən dramaturqların əsərləri ədəbiyyatşünaslar və teatr tədqiqatçıları tərəfindən geniş şəkildə araşdırılmış, müxtəlif nəzəri aspektlərdən təhlil edilmişdir. Bu tənqidçilər sırasında Arif Səfiyev, Yaşar Qarayev, Mehdi Məmmədov, Eynəddin Məmmədov, Cəfər Cəfərov, Məməd Arif kimi ədəbiyyatşünasların adlarını göstərmək olar.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı inkişaf istiqamətinə görə iki mərhələdə özünü göstərmişdir. Birinci mərhələ xalqın ictimai-siyasi mübarizəsi nəticəsində 70 illik qadağaların sonlandığı, xalqın müstəqillik qazandığı, milli müstəqillik dəyərlərinin inkişaf etdiyi 1990-cı illər ədəbiyyatı kimi tarixə həkk olunmuşdur. Ədəbiyyatın hər bir ədəbi növündə olduğu kimi dramaturgiya da öz inkişaf istiqamətlərinə görə yeni bir mərhələyə daxil olmuş, əvvəlki durğunluqdan, əsarətdən xilas olmuş, həyatda, cəmiyyətdə baş verən hadisələrə sosialist münasibət müstəqil baxışlarla, yeni estetik meyillərin üzə çıxması ilə müşahidə olunmuşdur. 1980-ci illərdən 2000-ci ilə qədər olan dövr ədəbiyyatın köhnə meyillərdən, sosialist baxışlardan təmizlənməsi, yeni istiqamətlərin meydana gəlməsi ilə xarakterizə olunur. Ədəbiyyatda bu dövr "keçid dövrü" kimi də

---

[1] Məmmədov, E. Dramaturgiyamızda ənənə və novatorluq / E. Məmmədov. – Bakı:Yazıçı, – 1985. – s. 68

tanınır.

2000-ci illər dramaturgiyası isə ədəbiyyatda yeni inkişaf xəttinin meydana gəlməsi ilə səciyyələnir. Bu inkişaf xətti özünü dramaturgiyanın, xüsusilə də komediya janrının mövzu və məzmun xüsusiyyətlərinin yenilənməsi, yeni obrazların yaranması şəklində göstərir. Bu dövrdə komediya dedikdə qəhqələrlə yazılmış bir janr deyil, əksinə bədbin notlarla yüklənmiş, içərisində həm gülüş, həm də göz yaşının olduğu tragikomediya və yaxud da kədərin, göz yaşının əsas olduğu komediya nəzərdə tutulur. *"Müasir komediyanın əhval-ruhiyyəsi" dəyişdiyi kimi, bədii-komik planı da dəyişməkdədir. İkimininci illər komediyasında komik vəziyyəti, ciddi gülüşü, düşündürücü mahiyyətli komik replikalar, qeyri-ciddi gülüş və əyləndirici məzmun əvəz edir. Hər gülməli olan şey komik deyil" tezisinin əksinə olaraq dramatik xəttin inkişafına dəxli oldu-olmadı gülüş doğura biləcək hər şey əsərin bədii-komik planına daxil olur. Ciddi komediya öz yerini məzhəkəyə güzəştə gedir".*[2]

Müstəqillik dövrü Azərbaycan dramaturgiyasının mövzu və məzmun baxımından yenilənməsində, eləcə də janr və üslub xüsusiyyətlərinin zənginləşməsində bir sıra dramaturqların mühüm rolu olmuşdur. Firuz Mustafa, Vaqif Səmədoğlu, Aqşin Babayev, Xeyrəddin Qoca, Əli Əmirli, Ağarəhim Rəhimov, Rəhman Əlizadə, Kamal Abdulla və Elçin Hüseynbəyli kimi müəlliflərin qələmə aldıqları komediyalar müstəqillik dövrü Azərbaycan dramaturgiyasının ideya-estetik axtarışlarını, mövzu müxtəlifliyini və bədii istiqamətlərini özündə əks etdirir. Bu dövrdə yazılan komediyalar istər kəmiyyət, istərsə də kefiyyət baxımından digər dövrlərdə yazılanlardan geridə qalmamışdır. Müstəqillik dövrü Azərbaycan komediyaları yalnız mövzu və məzmun xüsusiyyətləri baxımından deyil, həmçinin struktur baxımından da yeni bir mərhələyə qədəm qoymuşdur. Mistik-psixoloji, fantastik, məzhəkə, tragikomik, oyun, absurd, antikomediya, komik faciə, qrotesk, fars, ekzotik komediya , mini-fars və s. əsərlərin yazılması bu janrın bütün formalarda inkişafına səbəb olmuş, onu janr və forma baxımından zənginləşdirmişdir. Komediyada yeni konflikt xətləri, yeni ifadə vasitələri, yeni surətlər və xarakterlərin yaranması

---

[2] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2cilddə] / tərt. ed. İ. Həbibbəyli. – Bakı:Elm və təhsil, – c.2. – 2016 . – s. 756

onu məzmun baxımından da inkişaf etdirmişdir.

Komediya janrı bu dövrdə komediya janrının inkişafı, yeni dramaturji nümunələrin yaranması və onların respublikanın müxtəlif teatrlarında səhnələşdirilməsi ilə müşayiət olunmuşdur. Dramaturji yaradıcılığın intensivləşməsi və əsərlərin teatr repertuarında geniş yer tutması milli teatrın bədii-estetik imkanlarının genişlənməsinə, həmçinin peşəkar rejissor və aktyor kadrlarının formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Beləliklə, komediya janrı Azərbaycan teatr sənətinin institusional və yaradıcılıq baxımından inkişafında mühüm rol oynamışdır.

Son illərdə isə dramaturgiyada Qan Turalı, Vüsal Nuru, Samir Sədaqətoğlu kimi bir sıra gənc yazarların pyesləri ilə qarşılaşırıq. Lakin komediya adı altında yazılan əsərə isə gənc yazarlardan heç kimin yaradıcılığında təsadüf etmirik. Biz pyes şəklində qələmə alınmış əsərlərdə yalnız komediyanın bəzi elemetlərini görə bilirik. Bu dediklərimizin hamısı müstəqillik dövrü Azərbaycan komediyasının aktuallığını şərtləndirən amillərdəndir. Bu səbəbdən müstəqillik dövrü Azərbaycan komediyasının yeniliklərinin geniş şəkildə dissertasiya səviyyəsində tədqiqata cəlb olunması olduqca əhəmiyyətlidir.

Müstəqil komediya ədəbi prosesin tərkib hissəsi kimi ədəbi tənqidin daim diqqət mərkəzində olmuşdur. Lakin digər növlərə nisbətən dramaturgiyanın, xüsusilə də, onun əsas janrlardan biri olan komediyanın tədqiqinə az yer verilmişdir. Tənqidçilərdən Aydın Dadaşovun[3], Məryəm Əlizadənin[4], Aydın Talıbzadənin[5], Seyfəddin

---

[3] Dadaşov, A. Çağdaş Azərbaycan dramaturgiyası / A.Dadaşov. – Bakı: Elm və təhsil, – 2012. – 304 s.; Dadaşov, A. Ekran dramaturgiyası / A.Dadaşov. – Bakı: Maarif, – 1999. – 224 s.; Dadaşov, A. İki pyesin fərqli modeli (I yazı) // 525-ci qəzet. – 2013, 11may. – s.28; Dadaşov A. Müasir Azərbaycan dramaturgiyası / A. Dadaşov. – Bakı: Elm və Təhsil, – 2012. – 304 s.; Dadaşov, A. Müstəqillik dövrünün dramaturgiyası / A.Dadaşov. – Bakı: Nağıl evi, – 2005. – 216 s.

[4] Əlizadə, M. Zamanın absurdu və yaxud absurd zamanı. II məqalə // 525-ci qəzet. – 2019, 25 may. – s.14-15. Əlizadə, M. Elçinin teatr dünyası / M.Əlizadə.– Bakı: Təhsil, – 2014. – 312 s.

[5] Talıbzadə, A. Azərbaycanlıların müstəqillik sərgüzəştləri // – Bakı: Azərbaycan, – 2011. – №1, – s. 166-179; Talıbzadə, A. El üçün yaşamış Elçin və Bakı-Buzovna marşrutunun ədəbi şedevrləri // – Bakı: Tənqid.net, – 2013. – s. 324-332.

Eyvazovun[6], Bədirxan Əhmədlinin[7], Əsəd Cahangirin[8], Aynurə Mustafayevanın[9] və başqalarının məqalələri, monoqrafiyaları çap olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin başlıca araşdırma obyektini Vaqif Səmədoğlu, Firuz Mustafa, Aqşin Babayev, Xeyrəddin Qoca, Rəhman Əlizadə, Ağarəhim Rəhimov, Əli Əmirli, Elçin Əfəndiyev, Kamal Abdulla, Vüsal Nuru, Samir Sədaqətoğlu və Qanturalının komediya janrında yazdığı əsərlər təşkil edir. Dissertasiyada həmçinin Mirzə Fətəli Axundov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir Hacıbəyov, Sabit Rəhman, Ənvər Məmmədxanlı, Altay Məmmədov, Mirzə İbrahimov kimi dramaturqların komediyalarına səthi şəkildə olsa da, nəzər yetirilmişdir. Ölkənin ədəbi, bədii məcmuələrində çap edilən, teatr tamaşalarında nümayiş olunan komediyaların ən maraqlı nümulərinin mövzu və məzmun xüsusiyyətlərinin araşdırılması, bu komediyaların elmi-nəzəri baxımından qruplaşdırılması tədqiqat obyektinə daxildir. Dissertasiya işində Azərbaycan komediyasının müxtəlif məsələlərinə aid yazılmış tənqidi, ədəbi-nəzəri mənbələrə də istinadlar edilmişdir.

Tədqiqatın predmetini isə müstəqillik dövrü Azərbaycan komediyasının inkişafı ilə bağlı məsələlər təşkil edir. Bura mövzu, məzmun xüsusiyyətləri, janr müxtəlifliyi, forma zənginliyi, xarakter, konflikt məsələsi, müasirlik, postmodernizm anlayışı və onu əhatə edən problemlər daxildir.

**Tədqiqatın məqsədi və vəzifələri:** Tədqiqatın əsas məqsədi müstəqillik dövrü Azərbaycan komediyasının inkişaf xüsusiyyətlərini elmi-nəzəri və praktik aspektlərdən araşdırmaq, bu sahədə mövcud

---

[6] Eyvazov, S. Firuz Mustafanın monopyesləri haqqında // – Bakı: Ulduz, – 2011. №10, – s. 64-65; Eyvazov, S. Xalq yazıçısı Elçinin dramaturgiyası / S.Eyvazov. – Bakı: ADPU, – 2008. – 207 s.

[7] Əhmədov, B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Dərslik / B. Əhmədov. – Bakı: Elm və təhsil, – 2011. – 434 s.; Əhmədov, B. Milli dramaturgiyanın Elçin mərhələsi // 525-ci qəzet. – 2013, 15 iyul. – s. 16.; Əhmədli, B. Çağdaş ədəbiyyatımızın görkəmli siması: [Elektron resurs] // – Bakı: 27 aprel, 2022. URL:https://edebiyyatqazeti.az/news/edebi-tenqid/8803-

[8] Cahangir, Ə. Dionisin sağlığına. I yazı // 525-ci qəzet. – 2011, 28 may. – s. 26-27.

[9] Mustafayeva, A. Çağdaş dramaturgiyamız və teatr // – Bakı: Qobustan, –2015. №1, – s. 70-73; Mustafayeva, A. Dramaturgiya – 2014 // – Bakı: Ədəbi proses – 2014, – 2015. –s. 70-73.

tendensiyaları müəyyənləşdirmək, həmçinin onun müasir Azərbaycan ədəbiyyatındakı yeri və rolunu üzə çıxarmaqdır.

Tədqiqat işində qarşıya qoyulan vəzifələr aşağıdakılardır:

– komediya janrının Azərbaycan ədəbiyyatında estetik və nəzəri cəhətdən rolunu, mövqeyini məyyənləşdirmək;

– XIX -XX əsrdə komediya janrında yazılan əsərləri mövzu və məzmun baxımından müqayisəli şəkildə tədqiq etmək;

– Sovet dövrü komediyasının inkişaf xüsusiyyətlərini, janrın qarşılaşdığı ideoloji və senzura məhdudiyyətlərini nəzərə almaqla təhlil etmək;

– müstəqillik dövrü Azərbaycan komediyasının ədəbi prosesdə rolunu və mövqeyini müəyyənləşdirmək;

– müstəqillik dövrü Azərbaycan komediyalarını vətənpərvərlik dəyərləri baxımından təhlilə cəlb etmək;

– müstəqillik dövrü Azərbaycan komediyasına aid nümunələri ailə-məişət problemləri baxımından təhlil etmək;

– müstəqillik dövrü Azərbaycan ədəbiyyatında yazılan komediyaları mənəvi-əxlaqi, sosial dəyərlər əsasında təhlil etmək;

– müstəqillik dövrü Azərbaycan komediyasını janr, üslub baxımından araşdırmaq və təhlilə cəlb etmək;

– müstəqillik dövrü komediyasında postmodernizmlə bağlı elementləri üzə çıxarmaq və araşdırmaya cəlb etmək.

**Tədqiqatın metodları.** Tədqiqat prosesində sistemli yanaşma, təhlil və sintez, müqayisəli-tipoloji təhlil, tarixi-müqayisəli və tənqidi təhlil metodlarından istifadə edilmişdir. Müstəqillik dövrü Azərbaycan komediyasının inkişaf istiqamətlərinin araşdırılması zamanı janrın tipoloji xüsusiyyətləri, mövzu-məzmun müxtəlifliyi və bədii-estetik xüsusiyyətləri nəzərə alınmış, müxtəlif nəzəri yanaşmalardan yararlanılmışdır. Tədqiqatın nəzəri-metodoloji əsasını müasir ədəbiyyatşünaslıq və ədəbi tənqidin elmi-nəzəri müddəaları təşkil edir. Bununla yanaşı, komediya janrına dair aparılmış yerli və xarici tədqiqatların nəticələrindən, eləcə də mövzu ilə bağlı mövcud elmi ədəbiyyatdan geniş şəkildə istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Azərbaycan komediya sənətinin əsasları Mirzə Fətəli Axundovun dramaturgiyası ilə qoyulmuş, sonrakı tarixi mərhələlərdə

ictimai və siyasi dəyişikliklərin təsiri ilə inkişaf edərək sovet dövrü komedioqrafiyasının təşəkkülünə şərait yaratmışdır;

– Sovet hakimiyyəti illərində Azərbaycan komediyası sosialist realizminin və ideoloji tələblərin təsiri ilə formalaşsa da, milli komediya ənənələrinin bir sıra xüsusiyyətlərini özündə yaşatmağa davam etmişdir;

– Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra komediya janrı yeni mövzu və məzmun xüsusiyyətləri qazanaraq inkişafının fərqli mərhələsinə qədəm qoymuşdur;

– Müstəqillik dövründə ədəbi mühitə gələn yeni dramaturq nəsli komediya janrına yeni bədii-estetik baxışlar gətirmiş, nəticədə üslub və ifadə vasitələrinin diapazonu daha da genişlənmişdir;

– Müstəqillik dövrünün komediyalarında vətənpərvərlik motivləri milli özünüdərk, tarixi yaddaş və dövlətçilik ideyalarının bədii təcəssüm vasitələrindən biri kimi çıxış edir;

– Ailə və məişət münasibətləri müstəqillik dövrü komediyalarının aparıcı mövzularından biri kimi diqqəti cəlb edir, ailədaxili qarşıdurmalar və dəyərlər sistemində baş verən dəyişikliklər komik elementlər vasitəsilə ifadə edilir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada Azərbaycan komediyasının tarixi inkişaf mərhələlərinin qarşılıqlı əlaqə və ardıcıllıq prinsipi əsasında təhlil edilməsi müstəqillik dövründə yazılmış komediyaları əvvəlki dövrlərdə bu janrın inkişaf mərhələlərindən fərqləndirən başlıca xüsusiyyətləri müəyyənləşdirməyə imkan vermişdir.

Araşdırma zamanı komediya janrının müxtəlif tarixi mərhələlərdə keçdiyi inkişaf yolu, ictimai-siyasi və sosial-mədəni dəyişikliklərin komediyanın mövzu və ideya istiqamətinə təsiri nəzərdən keçirilmişdir. Bu yanaşma müstəqillik dövrü Azərbaycan komediyasının təkcə əvvəlki ənənələrin davamı kimi deyil, həm də yeni ictimai reallıqların, dəyişən dünyagörüşünün və müasir estetik tələblərin təsiri nəticəsində formalaşan fərqli bədii mərhələ kimi səciyyələndirilməsinə imkan vermişdir.

Tədqiqatda müstəqillik dövrü komediyalarında vətənpərvərlik, sosial-mənəvi problemlər, ailə-məişət münasibətləri, milli-mənəvi dəyərlər, cəmiyyət və fərd münasibətləri kimi aktual

mövzuların sistemli şəkildə araşdırılması mövzunun mühüm yeniliklərindən biri kimi müəyyənləşdirilmişdir. Bu mövzuların komediya janrının ifadə imkanları çərçivəsində təqdim olunması ilə komik vasitələrdən istifadə etməklə ictimai problemlər təhlil edilmişdir. Müstəqillik dövründə milli kimlik, vətən anlayışı, Qarabağ mövzusu, sosial münasibətlərdə baş verən dəyişikliklər, milli-mənəvi dəyərlərin transformasiyası və ailə modelində meydana çıxan yeni münasibətlərin komediyalarda əks olunması əvvəlki dövrlərin bədii yanaşmaları ilə müqayisəli şəkildə araşdırılmışdır.

Tədqiqatın digər mühüm yeniliyini müasir Azərbaycan komediyasında postmodernizm poetikasının təzahür formalarının müəyyənləşdirilməsi təşkil edir. Bu kontekstdə parodiya, pastiş, ironiya, dekonstruksiya, janrlararası keçid, mətnlərarası əlaqələr və ənənəvi süjet-modellərin yeni məzmun çərçivəsində təqdim olunması kimi postmodern poetik xüsusiyyətlərin komediya mətnlərindəki funksional rolu araşdırılmışdır. Postmodern elementlərin Azərbaycan komediyasına təsiri yalnız formal yeniliklər müstəvisində deyil, həm də müəllifin gerçəkliyə münasibətinin, obraz və süjet quruculuğunun, gülüş modelinin və oxucu tamaşaçı ilə ünsiyyət formasının dəyişməsi baxımından təhlil edilmişdir.

Beləliklə, Azərbaycan komediyasının tarixi inkişafının bütöv proses daxilində izlənilməsi, müstəqillik dövrü komediyasının tematik, ideya-məzmun və poetik xüsusiyyətlərinin əvvəlki mərhələlərlə müqayisəli şəkildə müəyyənləşdirilməsi, həmçinin müasir komediya mətnlərində postmodern estetik prinsiplərin və ənənəvi komizm modellərinin qarşılıqlı münasibətinin araşdırılması dissertasiya işinin elmi yeniliyini şərtləndirən əsas amil kimi çıxış etmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işi problemin qoyuluşu, metodoloji aspekti, nəzəri münasibət və araşdırma üsulları mövqeyindən, ümumən, Azərbaycan komediyasının inkişaf tarixi ilə əlaqədar tədqiqatlar üçün elmi-nəzəri mahiyyət daşıya bilər.

Tədqiqatda konkret olaraq müstəqillik dövrü Azərbaycan komediyasının inkişaf istiqamətləri tədqiq olunsa da, burada, ümumən, Azərbaycan komediyasının qaynaqları, inkişaf tarixi,

nəzəri problemlər, ümumi inkişaf qanunauyğunluqları haqqında da araşdırmaların aparılması onun praktik əhəmiyyətini artırır.

Tədqiqat işinin əsas müddəaları, elmi ümumiləşdirmələri və nəticələrini aşağıda göstərilən işlərdə tətbiq etmək olar:

– dramaturgiya və komediya sahəsində fəaliyyət göstərən alimlərin tədqiqatlarında və elmi əsərlərin hazırlanmasında;

– teatrşünaslıq, ədəbi tənqid və ədəbiyyat nəzəriyyəsi, komediya nəzəriyyəsi və s. məsələlərlə bağlı tədqiqatlarda;

– müxtəlif ali məktəblərin filologiya fakültələrinin bakalavr, magistr pillələrinin proqram, dərs vəsaitlərinin hazırlanmasında.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin mövzusu AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən Filologiya Problemləri üzrə Elmi Şurada təsdiq olunmuşdur.

İddiaçının dissertasiya işinin mövzusu ilə bağlı məqalə və tezisləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, eləcə də beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan dövri elmi nəşrlərdə, xarici ölkələrdə elmi məcmuə, jurnal və toplularda, beynəlxalq və respublika elmi konfraslarında məruzə edilib çap edilmişdir.

**Tədqiqat işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Slavyan Universitetinin “Azərbaycan ədəbiyyatı” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrı-ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya “Giriş”, hər biri paraqraflara bölünməklə üç fəsil (ilk fəsil iki, ikinci fəsil üç, üçüncü fəsil 2 paraqrafa bölünmüşdür), “Nəticə”, “İstifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın “Giriş” 15640, I fəsil 70237, II fəsil 94264 , III fəsil 78373, “Nəticə” hissəsi isə 6835 olmaqla, işarə ilə işin ümumi həcmi 265364 şərti işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, metodları, elmi yeniliyi, işin nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan əsas müddəaları, aprobasiya və tətbiqi, yerinə yetirildiyi təşkilat, həcmi müəyyən edilmişdir.

Dissertasiyanın **"Komediya ədəbiyyatın estetik funksiyasının məxsusi janrı kimi"** adlı birinci fəsli iki paraqrafdan ibarətdir.

"**Komediya janrına estetik və nəzəri cəhətdən yanaşma"** adlı birinci paraqrafda komediya janrı həm dünya ədəbiyyatında, həm də Azərbaycan ədəbiyyatında nəzəri və estetik kontekstdən araşdırılır. Komediya gündəlik həyatdakı çatışmayan xüsusiyyətləri, nöqsanları gülüşün müxtəlif formaları vasitəsilə ifşa edən, bu yolla insanlara doğru yol göstərməyə çalışan, oxucunu və yaxud da tamaşaçını tənqid obyektinə çevrilmiş obraz vasitəsilə öz səhvlərini görərək tərbiyələndirməyə sövq edən dramatik növün janrdır. Komediyanın əsas silahı gülüşdür, gülüşsüz, yumorsuz komik şəkildə yazılmış əsəri düşünmək mümkün deyil.

Birmənalı səciyyə daşımayan bu gülüş bəzən yumor vasitəsilə insanlara qarşı yumşaq xarakter daşıyaraq onları islah edir, bəzən də satirik gülüş yolu ilə kəskin şəkildə ifşa edir. Komediyada önəmli rol oynayan müəllif fikri, daha çox satirik gülüş vasitəsilə verilir, satirik gülüşlə mənfi obrazlar ifşa olunur, onların əsl məramı gün üzünə çıxır.

Komediya haqqında ilk məlumatlarla yunan elminin alimlərindən biri olan Aristotelin "Poetika" əsərində tanış oluruq. Aristotel "Poetika" kitabında komediyanı pis insanların təsvir olunduğu əsər adlandırmış, həmçinin bu tərifə aydınlıq gətirərək söyləmişdir ki, bunu mənfi anlamda anlamaq lazım deyildir. Çünki gülüş mənbəyinə çevrilən obyekt özü də eybəcərliyin bir parçasıdır. Aristotel gülüş mənbəyinə çevrilən obyekti heç kimə zərəri dəyməyən, iztirab çəkdirməyən səhv və çirkinlik adlandırmış, komik maskanı nümunə göstərərək onu eybəcər və çirkinliyin bir növü kimi

qeyd etmişdir.[10] "Poetika" əsərindən təqdim olunan bu dəyərli fikirlərə əsasən demək olur ki, komediya janrında yazılan əsərlərdə mənfi xislətli insanlar, onların çirkin əməlləri, yol verdikləri səhvlər janrın tələblərinə uyğun şəkildə gülməli yolla ifşa edilir. Aristotel komediya janrının əsas mahiyyətini təşkil edən gülüşün özünü eybəcərliyin, çirkinliyin bir hissəsi adlandırır.

Azərbaycan ədəbiyyatında komediya janrında ilk əsərin müəllifi olan M.F.Axundzadə də komediya haqqında maraqlı fikirlər söyləmişdir: *"Hər bir xalqın içərisində saxtakar, axmaq adamların olduğu hamıya bəllidir. Bu cür adamların işlərini və hərəkətlərini dram əsərlərində istehza ilə göstərirlər ki, başqalarına ibrət olsun... Bu kimi əsərlər camaatın bəzi üzvlərini tənqid etməklə bütün xalqın tərbiyəsinə kömək edir".*[11]

Nəzəriyyə elminin dərinliklərinə bələd olan bəzi alimlər apardıqları tədqiqatlarda komediyanın gülüşün xarakterindən aslı olaraq tragikomediya, vodevil, fars, libretto kimi növlərinin olduğunu qeyd edirlər. Bu janrları həm dünya ədəbiyyatında, həm də Azərbaycan ədəbiyyatında bir çox komediyanəvislərin dramaturji yaradıcılığında görmək mümkündür. Ədəbiyyatımızda, xüsusilə də, Cəlil Məmmədquluzadə dramaturgiyasında tragikomediya janrı özünü daha çox göstərir. Tragikomediya janrı mövzu və məzmunun xüsusiyyətlərinə, tamaşaçıda, oxucuda oyatdığı hiss və duyğulara əsasən ikili xarakter daşıyaraq həm komediya, həm də faciənin əlamətlərini özündə birləşdirir.

*"Komediya janrı öyrədir ki, həyat ekzistensial, metafizik suallarla doludur və o suallara qəti cavab tapmaq mümkün deyil. Komediyada həyatda olanın həmişə tərs üzü göstərilir, yaxudda buna güclü işarələr olur. Komediya bu mətləbi açıqlayıb ortaya qoymaq üçün həyatın dibinə enir, lap elə insanı iyrəndirmək, bezdirmək dərəcəsində olan hadisələri seçib hamıya göstərir ki, hər kəs dünyanın zahiri cazibəsinə uymasın".*[12] Ədəbiyyatşünas Cavanşir

---

[10] Aristotel. Poetika (Poeziya sənəti haqqında) / Aristotel. Tərcümə, məqalələr və şərhlər A.Aslanovundur. – Bakı: Şərq-Qərb, – 2006. –s. 29

[11] Mirəhmədov, Ə. Mirzə Fətəli Axundov / Ə. Mirəhmədov. – Bakı: Azərnəşr, – 1953. – s. 31

[12] Yusifli, C. Azərbaycan komediyasının poetikası / C. Yusifli. – Bakı: Elm, – 2007. – s. 142

Yusifli "Azərbaycan komediyasının poetikası" əsərindən olan bu fikirlərdə komediyanın həyatla tərs olan, insanları iyrəndirəcək, nifrət etdirəcək hadisələr üzərində qurulduğunu söyləyir.

"**Azərbaycan ədəbiyyatında komediya janrının inkişaf tarixi"** adlı ikinci paraqrafda isə Mirzə Fətəli Axundzadə komediyalarından başlayaraq indiki dövrə qədər komediyanın inkişaf tarixinə ümumi şəkildə nəzər salınmışdır.

*"1. XIX əsrin sonu mili dramaturgiyanın meydana çıxması;*

*2. XX əsrin əvvəlləri milli dramaturgiyanın inkişaf dövrü;*

*3. Sovet dövründə yaranan dramaturgiya;*

*4. Müstəqillik illərində ərsəyə gələn dramaturgiya"*[13]

Mirzə Fətəli Axundzadə müxtəlif süjet və kompozisiyaya, rəngarəng mövzu və məzmun xüsusiyyətlərinə malik olan, real həyatın mənfi cəhətlərini realistcəsinə tipikləşdirən komediyalar ərsəyə gətirmişdir. Dramaturqun komediyalarında cəhalət, gerilik, nadanlıq, fanatizm, özbaşınalıq, qadın azadlığı kimi mühüm problemlər komediya janrının tələbinə uyğun olaraq gülüşlə tənqid olunmuşdur. Yazıçı öz xarakterlərini, ictimai mövqeylərini, məqsədlərini bəzən hərəkətləri, bəzən də danışığı ilə tamaşaçıya, oxucuya aydın şəkildə büruzə verən, cəmiyyətdəki çatışmazlıqları tənqid edən ümumiləşdirilmiş tiplər yaratmışdır. Axundzadənin bu tipləri vasitəsilə fırıldaqçı, yalançı din xadimləri, xəsis alverçilər, öz xeyri üçün hər yola əl atan bəylər, qəddar insanlar ifşa olunmuşdur.

XIX əsrin sonu XX əsrin əvvəllərində ölkənin ictimai-siyasi, mədəni həyatında köklü dəyişikliklər baş vermiş, ölkə mülkədarlığın zəiflədiyi, burjua münasibətlərinin yaranıb, bir sinif kimi formalaşdığı, aşağı təbəqənin nümayəndələrinin inqilabi mübarizəyə hazırlaşdığı bir dövrə qədəm qoymuşdur. Bu dövrdə ədəbiyyatımızda mütərəqqi fikirli ziyalı ordusu yaranmağa başlamışdı. Mirzə Fətəli Axundzadə ədəbi məktəbinin layiqli davamçılarından olan Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev də öz komediya yaradıcılıqları ilə dramaturgiyamızda yeni bir cığır açmış, xalqını, vətənini sevən, onun rifahı üçün əlindən gələni əsirgəməyən sənətkarlar kimi qabaqcıl ziyalıların nümayəndələrindən olmuşlar.

[13] Əliyeva, X. Müasir Azərbaycan dramaturgiyası. Dərs vəsaiti / X. Əliyeva. – Sumqayıt:SDU, – 2019. – s.4

Azərbaycan ədəbiyyatında komediya janrının inkişafı XX əsrin əvvəllərində öz yaradıcılığı ilə istər Azərbaycan ədəbiyyatında, istərsə də dünya ədəbiyyatında öz sözünü demiş böyük dramaturq Cəlil Məmmədquluzadənin adı ilə bağlı olmuşdur. Əli Sultanlının sözləri ilə desək, *"XIX əsr M.F.Axunzadə əsri idisə, XX əsr Cəlil Məmmədquluzadə əsridir.*[14] Cəlil Məmmədquluzadə öz komediya yaradıcılığı ilə dramaturgiyada yeni bir yol açmış, yeni bir ədəbi məktəb yaratmışdır. Cəlil Məmmədquluzadə "kiçik" insanı böyük ədəbiyyatın əsas qəhrəmanı səviyyəsinə qaldırmaqla nəsrdə atdığı böyük addımı dramaturgiyada da komediyanın janrlarından biri olan tragikomediyanın əsasını qoymaqla davam etdirmişdir.

Cəlil Məmmədquluzadə komediyalarında öz düşüncələrini ifadə etmək üçün ilk dəfə "dəlilik" priyomu və tipi öz dili ilə danışdırmaq üsulundan da istifadə edərək mənfi obrazları öz danışıqları ilə ifşa etmişdir.

Bu dövr komediya yaradıcılığı ilə milli dramaturgiyaya öz adını yazdıran komediyanəvislərdən Üzeyir Hacıbəyli musiqili komediyanın əsasını qoymuş, bununla kifayətlənməyərək dramaturgiyamıza fərqli mövzu və məzmun xüsusiyyətlərinə malik komediyalar gətirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra 70 illik bir ömür sürən sosialist realizm dövrü xalqımızın həyatında mürəkkəb, ziddiyyətli bir dövr olmuşdur.

Bu dövrdə bütün sahələrdə olduğu kimi ədəbiyyatdakı milli-demokratik meyillər də məhdudlaşdırılmağa başlanılmış, hakim ideologiya ədəbiyyatımızın qarşısında sədlər çəkərək milli məfkurəyə qarşı çıxmışdır. Lakin sərt təzyiqlərə rəğmən hakim ideologiyanın yetişdirdiyi yazıçılarla yanaşı, hələ də milli adət-ənənələri, mütərəqqi, humanist ideyaları, bir çox gerçəklikləri öz əsərlərində əks etdirən yazıçılar ordusu da mövcud olmuşdur. Professor İsa Həbibbəyli sovet dövründə yaranan ədəbiyyatı iki qrupa bölmüşdür:

*"1. Azərbaycan sovet ədəbiyyatı, yəni sovet ideologiyası əsasında yaranmış Azərbaycan ədəbiyyatı*

---

[14] Əlimirzəyev, X. Klassiklərin ideal və poetik sənət dünyası: [2 cilddə] / X.Əlimirzəyev. – Bakı: Elm və təhsil, – c2. – 2009. – s.6

*2. Sovet dövrü Azərbaycan ədəbiyyatı, yəni sovet dövründə yaranan, lakin Azərbaycan gerçəkliyini əks etdirməyə üstünlük verən Azərbaycan ədəbiyyatı".*[15]

Sovet komediyanəvislərdən hesab olunan Sabit Rəhman, Ənvər Məmmədxanlı, Mirzə İbrahimov, Altay Məmmədov, Süleyman Rüstəm kimi dramaturqlar öz komediyaları ilə yeni mövzu, süjet və tiplər yaratmışlar.

Bir əsrə yaxın bir dövrü əhatə edən sovet dövrü süqut etdikdən sonra ədəbiyyatımız öz kökünə qayıtmış, xalqımızın qazandığı müstəqillik hər bir sahədə olduğu kimi ədəbiyyatda da özünü göstərmişdir. Lakin bu dövrdə tənəzzülə uğrayan ideoloji sistemin yerində boşluğun yaranması, birinci Qarabağ savaşı ilə əlaqədar olaraq ictimai-siyasi vəziyyət, maddi-mənəvi cəhətdən yaranan çətinliklər mədəni həyatda, həmçinin ədəbiyyatda, dramaturgiyanın inkişafında ləngimələr şəklində özünü büruzə vermişdir. Dramaturgiyada yaranan boşluqlar üçün narahat olan yazıçılar artıq özlərini bu sahədə sınamağa çalışmış, dramaturgiyaya yeni mövzu, janr və problematika, yeni konfliktlər, yeni obrazlar gətirmişlər.

Müstəqillik dövrü Azərbaycan dramturgiyası iki – ənənə və müasirlik xətləri üzrə inkişaf etmişdir. Dramaturji əsərlər həm özündən əvvəl yaranan əsərlərdən təsirlənmiş, həm də yeni dövrün qayda-qanunlarına tabe olmuşdur. Müstəqillik dövrü dramaturgiyası sovet dövrü dramaturgiyasının davamı kimi meydana çıxsa da, müasirlik baxımından ona yeni mövzular, yeni janrlar, yeni süjetlər əlavə olunmuşdur. Həm doxsanıncı, həm də ikimininci illər dramaturgiyasında ən çox işlənən janr komediya olmuşdur. Bu da komediyanın keçid dövründə insanların istər mənəvi, istərsə də maddi vəziyyətlərindəki, psixologiyalarındakı qüsurları təsirli şəkildə əks etdirə bilmək gücündən irəli gəlirdi. İkimininci illər komediyası sturuktur baxımından doxsanıncı illərin davamı kimi meydana çıxsa da, əsərlərin məzmunundakı əhvali-ruhiyəyə görə bir-birindən fərqlənirdi. Əgər doxsanıncı illərdə yazılan komediyalarda komik məzmun və əlamətlər üstünlük təşkil edirdisə, ikimininci illərdə yazılan əsərlər bədbin təhlil və yanaşmaları ilə fərqlənirdi. *"Bu gün*

---

[15] Həbibbəyli İ. Azərbaycan ədəbiyyatında sosialist realizm dövrü // –Bakı: Filologiya və sənətşünaslıq, – 2019. №2, – s. 3-18

*faciə janrında əsərin meydana çıxmamasının səbəblərindən biri də dramaturgiyanın bədbin əhval-ruhiyəyə köklənməsi ilə əlaqədardır. Məlumdur ki, öz hərfi məna-məzmununun əksinə olaraq faciə nikbin, komediya isə bədbin janrdır. Elə bu məntiqdən çıxış edəndə komediyanın aparıcı janr mövqeyi aydınlaşır. Çağdaş komediyanın bədbin notları həmişəkindən daha güclüdür və onun janr təyinatında tez-tez tragikomediya yaxud kədərli komediya kimi terminlərə rast gəlinir. Burada eybəcərlikdən gözəlliyə, rəzillikdən ülviliyə keçidlər yoxdur. ”* [16]

Bu dövrdə komediyanın ümumi mənzərəsi dəyişdiyi kimi onun əsasını təşkil edən gülüşün mahiyyəti də özünü fərqli şəkildə göstərirdi. İkiminici illər komediyasında ciddi, düşündürücü gülüşü, yüngül, mənasız gülüş əvəz edirdi. Bu əsərlərdə gülüş yarada biləcək hər şey pyesin ümumi məzmununa daxil edilirdi.

Birinci fəsildən əldə olunan əsas müddəalar müəllifin qeyd olunan məqalə və konfrans materiallarında öz əksini tapıb.[17]

“**Müstəqillik dövrü Azərbaycan komediyasının ideya-məzmun xüsusiyyətləri”** adlı II fəsil 3 paraqrafdan ibarətdir.

**“Müstəqillik dövrü Azərbaycan komediyasında vətənpərvərlik mövzusu”** adlı I paraqrafda Əli Əmirlinin “Bala, başa bəla”, Vaqif Səmədoğlunun “Bəxt üzüyü”, Ağarəhim Rəhimovun “Namərd körpüsü”, Samir Sədaqətoğlunun “Həbsxanada bayram” əsərlərinə nəzər yetirilmişdir.

Komediya çağdaş dramaturgiyada bir çox mövzularda əsas rol oynasa da, vətənpərvərlik, əsasən də Qarabağ mövzusunda özünü digər janrlara nisbətən aktiv formada göstərə bilməmişdir. Çünki komediyanın təbiətindən irəli gələrək müharibənin dəhşətlərini bu janrın imkanlarına sığışdırmaq mümkün olmamışdır. Lakin buna baxmayaraq az da olsa, bu mövzuda əsərlər yazılmışdır.

---

[16] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı:[ 2cilddə] / tərt. ed. İ. Həbibbəyli. – Bakı: Elm və təhsil, – c.1. – 2016. – s.756

[17] Məmmədova, R.B. Azərbaycan komedioqrafiyasının inkişaf tarixi // Elm və təhsilin əsasları VII Beynəlxalq elmi konfrans, – Bakı:Elmi Tədqiqat Beynəlxalq onlayn elmi jurnal, – 9aprel, – 2024. – s.42-45; Komediya janrı və onun inkişaf tarixi // – Bakı: Bakı Qızlar Universitetinin Elmi Əsərləri, – 2024. №1, – s.195-198; Azerbaijani comedy of the period of independence: features of the theme and content // – Russia:Modern humanities success, – 2024. – №2, – s. 13-19.

Bu paraqrafda adlarını çəkdiyimiz, üzərində təhlillər apardığımız komediyalarda hər bir yazıçı vətənpərvər bir insan kimi vətənin dərdinə yanmış, onun hər bir probleminə öz şəxsi məsələsi kimi yanaşmışdır. Ona görə də bu əsərlərdə vətənpərvərlik mövzusu ilə yanaşı, təlim-tərbiyəvi, ailə-məişət, sosial problemlər də yer almışdır. Hər bir yazıçı öz əsərində irəli sürdüyü problemlərə müxtəlif mövqeydən, fərqli tendesiyadan yanaşmışdır. Vaqif Səmədoğlu "Bəxt üzüyü" komediyasında Vətəninin parçalanmasına, həmvətənlərinin şam kimi əriyib yoxa çıxmasına təəssüf hissi ilə yanaşmışdırsa, Əli Əmirli "Bala, başa bəla" əsərində Vətənə xidmətdən boyun qaçırmağa çalışan, övladlarını bu ali vəzifədən yayındırmaq üçün hər yola əl atan nankor insanları tənqid atəşinə tutmuş, Ağarəhim Rəhimov "Namərd körpüsü" komediyasında vətəndən uzaq düşməyin acı nəticələrini göstərmişdir. Gənc yazıçı Samir Sədaqətoğlu isə həm dramın, həm faciənin, həm də komediyanın ünsürləri yer alan "Həbsxanada bayram" pyesində müharibənin reallıqlarından, ağrı-acılarından vətənini sevən, onun qeydinə qalan bir vətəndaş kimi bəhs etmişdir.

Dissertasiyanın II fəslinin II paraqrafı isə **"Müstəqillik dövrü Azərbaycan komediyasında ailə-məişət problemləri"** adlanır.

Azərbaycan Respublikasının müstəqillik qazanması, Sovet hakimiyyətinin devrilməsi, sosializmin kapitalizmlə əvəz olunması insanların istər sosial-iqtisadi vəziyyətinə, istərsə də psixoloji durumuna, fikir və düşüncələrinə təsirsiz ötüşməmişdir. Əlbəttə ki, bu təsir də ilk növbədə ailə-məişət problemlərinin yaranmasına, bir çox ailəçi məsələlərin baş qaldırmasına, ailənin təməli olan kişi-qadın arasındakı münasibətlərin pozulmasına və sonda bir çox ailələrin dağılmasına səbəb olmuşdur. Ölkə daxilində yaranan iqtisadi böhran, insanların bir hissəsinin məcburi köçkünlük həyatı yaşaması ailə münasibətlərində də əsaslı dəyişikliklərlə özünü göstərmişdir. Maddi məsələlərin ön mövqeydə dayanması, ailə daxilindəki münasibətlərdə anlaşılmazlıq, xəyanət, psixoloji, iqtisadi zorakılıq bu dövrdə yazılmış ailə-məişət komediyalarında əsas qabardılan problemlərdən olmuşdur. Cəmiyyətdə, onun əsas siması olan ailədə, ailədaxili münasibətlərdə yaranan dəyişikliklərə ədəbiyyatda, xüsusilə də, dramaturgiyada bir çox dramaturqlar biganə qalmamış, bu məsələlərə

daha həssas yanaşmışlar. Firuz Mustafanın "Qarışqa tələsi", "Kişiləri qoruyun", "Vida marşı", Əli Əmirlinin "Varlı qadın" "Kişi və qadın", "Onun iki qabırğası", "Yeddi məhbusə", Vaqif Səmədoğlunun "Bəxt üzüyü", "Yaşıl eynəkli adam-2" komediyalarında, gənc yazarlardan Vüsal Nurunun "Yad planetli kürəkən" pyesində keçid dövrünə məxsus problemlər ailə-məişət çərçivəsi daxilində, ənənəvi dramaturji formada, özünəməxsus üslubda həll olunmuşdur.

"**Müstəqillik dövrü Azərbaycan komediyasında sosial-mənəvi problemlərin təsviri"** adlı üçüncü paraqrafda isə Əli Əmirli, Firuz Mustafa, Aqşin Babayev, Xeyrəddin Qoca, Ağarəhim Rəhimov kimi dramaturqların komediyalarında sosial-mənəvi məsələlər araşdırılır.

Müstəqillik dövrü Azərbaycan dramaturgiyasının, xüsusən komediyasının qarşısında dayanan əsas məsələlərdən biri müasir cəmiyyətdə sosial problemlərin həlli yollarıdır. Sosial problemlər məhdudiyyətlərlə əlaqədar olaraq sosrealizm mərhələsindən başqa bütün dövrlərdə istər dramaturgiyaya, istərsə də teatra yol tapmışdır. Lakin digər mərhələlərdən fərqli olaraq müstəqillik dövründə dramaturqların, əsasən də, gənc yazıçıların yaradıcılığında sosial məsələlərə və onların bədii həll yollarına daha çox rast gəlmək olur. Müstəqillik dövrü Azərbaycan komediyalarının dramaturji qurluşunu sosial məsələlər təşkil etdiyi kimi, obrazlar və əsərdə irəli sürülən əsas ideya da yeni meydana çıxmış sosial münasibətlər sistemini nümayiş etdirir. Müstəqillik dövründə yaranan dramaturji əsərlərin əsas tədqiqatçılarından biri olan teatrşünas Aydın Dadaşov bu məsələyə öz fikrini bildirmişdir: *"Dramaturji strukturda iştirak edən personajların münasibətlər sistemi isə dövrün reallığının müxtəlif yozumunu yaradır. Dövrün mükəmməl mənzərəsini yarada bilən bu pyeslərdəki personajlar əhali daxilindəki müxtəlif zümrələri əhatə edə bildiklərindən hadisələr bənzər mövzu və struktur daxilində peşəkar, ictimai üslubların növbələşməsi hesabına sanki real həyatdan maraqlı reportaja çevrilə bilirlər".*[18]

---

[18] Dadaşov, A. Çağdaş Azərbaycan dramaturgiyası / A.Dadaşov. – Bakı: Elm və təhsil, – 2012. – s. 53

Əli Əmirlinin “Köhnə ev” pyesində yaxın keçmiş, bu keçmişin təsiri altında formalaşan insan xarakterləri, psixologiyası, mənəvi-əxlaqi münasibətlər, iqtisadi-siyasi məsələlərin əks olunduğu sosial problemlər bir evin alqı-satqısı daxilində təsvir olunmuşdur.

Vaqif Səmədoğlunun “Generalın son əmri” adlı ikihissəli bu komediyasında cəmiyyətdəki problemləri, hərc-mərcliyi, eybəcərlikləri gülüş obyektinə çevirmiş, mürəkkəb struktura, düşüncə tərzinə, psixologiyaya malik bir süjet qələmə almışdır.

Aqşin Babayevin “Əlin cibində olsun”, “Mənim adımdan danışmayın” “Əyri oturaq, düz danışaq” “Şeytanın yubileyi”, Xeyrəddin Qocanın “Qonşulaşma, qohumlaşma, kirvələşmə”, “Hərənin öz payı”, Ağarəhim Rəhimovun “Əl əli yuyar”, “Düdəməli qalmaqalı” komediyalarında cəmiyyətdə mövcud olan bəzi sosial-mənəvi problemlər bütün çılpaqlığı ilə əks olunmuşdur.

II fəsildən əldə olunan əsas müddəalar müəllifin qeyd olunan məqalə və konfrans materiallarında öz əksini tapıb. [19]

Tədqiqatın **“Müstəqillik dövrü Azərbaycan komediyasının janr-üslub xüsusiyyətləri”** adlı III fəsli iki paraqrafdan ibarətdir.

Dissertasiyanın III fəslinin birinci paraqrafı **“Müstəqillik dövrü Azərbaycan komediyasında janr və forma müxtəlifliyi”** adlanır. Müstəqillik dövrü Azərbaycan dramaturgiyası yeni dövrdə, yeni insan cəmiyyətində cərəyan edən hadisələri nümayiş etdirməklə yanaşı, bəzi xüsusiyyətlərinə görə də fərqlənir. Dramaturgiyada janr, forma müxtəlifliyi və zənginliyi də bu xüsusiyyətlərdən biridir. Əgər klassik dövrdə, sovet dövründə dramaturgiyada komediya, faciə, dram, pyes janrında əsərlər yazılırdısa, artıq müstəqillik dövrü Azərbaycan dramaturgiyasında janr, forma zənginliyi özünü

---

[19] Əli Əmirli komediyalarında dövrün bədii-estetik təcəssümü// – Bakı: Dil və ədəbiyyat, – 2024. №1, – s.190-193. ; Aqşin Babeyev, Xeyrəddin Qoca yaradıcılığında müstəqillik dövrünün təcəssümü // – Bakı:Filologiya məsələləri, – 2024. №2. – s.498-504.; Əli Əmirli komediyasının xüsusiyyətləri // Doktorantların və gənc tədqiqatçıların XXIII Respublika Elmi Konfransının Materialları, II hissə, – Bakı:AzMİU, – 3-4 dekabr, – 2019. – s. 115-117.; The reflection of social problems in Azerbaijani comedy of the independence period // Collection of materials of the İnternational Scientific and Practical conference on the topic “Development of philology: innovation, methodology and applied research”, – Toshkent: – 5 may, 2026. – s. 560-563.

göstərməyə başladı. Lakin bu o demək deyildi ki, müstəqillik dövrü özündən əvvəl yaranan dramaturgiyadan üstün idi. Xeyr, çünki istər klassik dövrdə, istərsə də sovet dövründə yazıb-yaradan dramaturqların yaradıcılığı keyfiyyət cəhətdən həm müstəqillik dövrü, həm də müasir dövr dramaturgiyadan daha üstün idi. Sadəcə olaraq, dövr inkişaf etdikcə maddi-texniki vasitələrin artması, teatrın inkişafı, yeni səhnə konstruksiyaları dramaturgiyada yeni janrların, formaların yaranmasını tələb edirdi. Bu tələbdən irəli gələrək müstəqillik dövrü Azərbaycan dramaturgiyasında keyfiyyətindən, teatrda səhnədə nümayiş olunub-olunmamasından aslı olmayaraq janr və forma rəngarəngliyi özünü göstərməyə başladı. Müstəqillik dövrü Azərbaycan dramaturgiyasında forma rəngarəngliyi xüsusilə komediya janrında özünü göstərmişdir. Belə ki, komediya janrı forma baxımından dəyişmiş, yeni elementlər, yeni detallar əlavə edilmişdir. Komediya, komik faciə, qrotesk, dramatik komediya, absurd, ekzotik komediya, antikomediya, fars, mənzum komediya, mini-fars, tragikomediya, məzhəkə, teatral komediya, epataj komediya, az kədərli komediya kimi janr və formalardan istifadə ilk dəfə müstəqillik dövründə baş vermişdir. Bu formalar hələ tam şəkildə təsdiqini tapmasa da, komediyadakı forma cəhətdən bu zənginlik yeni janr axtarışından xəbər verirdi. Dramaturgiyadakı bu janr və forma rəngarəngliyi Firuz Mustafa, Elçin Əfəndiyev, Əli Əmirli, Rəhman Əlizadə yaradıcılığında əks olunmuşdur. Müstəqillik dövrü Azərbaycan dramaturgiyasının janr poetikasının zənginliyinə, forma müxtəlifliyinə görə ən yaradıcı üzvləri Elçin Əfəndiyev və Firuz Mustafa olmuşdur. Firuz Mustafa dramaturgiyası janr və forma baxımından ən məhsuldar dramaturgiya olub bütün həmkarlarından fərqlənmişdir. Firuz Mustafa dramaturgiyada 40-dan çox əsər yazmışdır ki, bu əsərlər də 20-dən çox formaya malik olmuşdur.

Elçin Əfəndiyev dramaturgiyasını janr və forma müxtəlifliyinə, bir çox dünya ölkələrinin teatr təcrübəsində mühüm olan məsələləri, anlayışları milli teatrımıza gətirməsinə görə milli dramaturgiyada yeni bir mərhələ hesab etmək olar. Dünya ədəbiyyatında mühüm anlayışlardan olan absurdizm məhz Elçin yaradıcılığında ədəbiyyatımızda işlənməyə başlamışdır. *“Absurd teatr kainat qanunlarının anlaşılmazlığıdır, reallıqla xəyallar arasındakı*

*ziddiyyətlərdən, insanın öz-özüylə münaqişəsindən yaranır. İnsan olumla ölüm arasındakı sərhəddə çıxış yolu axtarır; eyni zamanda, həm ölümə, həm də yaşamağa can atır".* [20] Absurdizmin əsasını isə dəlilik anlayışı təşkil edir. Elçin Əfəndiyev öz dramaturgiya yaradıcılığında "dəlilik" sindromunu hər rakursdan qələmə almışdır. Onun dəlilərinə hər yerdə rast gəlmək mümkündür.

Üçüncü fəslin ikinci paraqrafı isə **"Müstəqillik dövründə postmodern üslubda komediyalar"** adlanır.

"Müstəqillik dövründə postmodern üslubda komediyalar" adlı paraqrafda müstəqillik dövründə yazılmış komediyalarda postmodern estetikasının izləri araşdırılır. Modernizm cərəyanından sonra meydana çıxan, modernizmin davamı, hətta bəzən modernizmin inkarı kimi də şərh edilən postmodernizmə, onun izlərinə müasir dövrdə Azərbaycan ədəbiyyatında, Azərbaycan dramaturgiyasında da rast gəlmək mümkündür.

Yazıçı-tədqiqatçı Nərmin Kamal postmodernizmin banilərindən olan Umberto Eko fəlsəfəsini araşdıraraq qeyd etmişdir ki, "*modernizm və postmodernizm fəlsəfəsi ard-arda özünü göstərsə də, bir-birinə müəyyən qədər bağlı olsa da onlar arasında müxtəlif fərqlər vardır. Əgər modernizm cərəyanının əsasında yenilik, keçmiş dəyərlərin inkar edilməsi ideyaları dayanırsa, postmodernizm fəlsəfəsi isə onun əksinə olaraq keçmiş dəyərlərin yenidən üzə çıxarılmasına, qiymətləndirilməsinə əsaslanır... Azərbaycan xalqı postmodernizm fəlsəfəsinin əsas ideyalarından yararlanmalıdır*".[21] Əlbəttə ki, yazıçı bu fikri boş yerə deməyib. Çünki Azərbaycan xalqı öz keçmişinə, tarixinə, mədəniyyətinə bağlı bir xalqdır. Buna görə də keçmiş stereotiplərin unudulması, yeni dəyərlərin önə çıxarılması üzərində qurulan modernizm fəlsəfəsinin əsas ideyalarına Azərbaycan xalqının ədəbiyyatında geniş şəkildə yer verilə bilməzdi. Modernizmin əksinə olaraq keçmiş dəyərləri unutmadan köhnəlmiş ideyaların yenidən dəyərləndirilməsi prinsipi üzərində qurulan postmodernizm cərəyanı

---

[20] Piriyev, İ. Absurdda qeyri-səlis absurd // 525-ci qəzet, – 2019, 18 sentyabr. – s.18-19.

[21] Kamal, Nərmin. Umberto Eko və postmodernizm fəlsəfəsi / N. Kamal. – Bakı: Qanun, – 2008.– s. 7

isə Azərbaycan ədəbiyyatında, dramaturgiyasında bir çox məsələlərin həllində müxtəlif çözüm yolları irəli sürmüşdür.

Dünya ədəbiyyatında hələ də dəqiq, vahid şəkildə şərhi verilməyən postmodernizm anlayışı, bu anlayışa məxsus düşüncə tərzinə Elçin Əfəndiyev, Kamal Abdulla, Qanturalı, Elçin Hüseynbəyli kimi dramaturqların əsərlərində təsadüf olunur. Dissertasiyada Elçinin "Şekspir", "Teleskop", Kamal Abdullanın "Casus", Elçin Hüseynbəylinin "Leyli və Məcnun", Qanturalının "Füzulinin qayıdışı" əsərləri əsasında postmodernizm, postmodernizmdə dekonstruktizm anlayışı, postmodernizmin oyun səciyyəsi, zaman və məkan vəhdətinin pozulması, şübhəçilik, ironiya və rişxənd, keçmişə müraciət və s. məsələlər təhlil edilmişdir.

III fəsildən əldə olunan əsas müddəalar müəllifin qeyd olunan məqalə və konfrans materiallarında öz əksini tapıb. [22]

Dissertasiyanın işinin **Nəticə** hissəsində elmi-nəzəri fikirlərə gəlinmişdir.

– Əsası Mirzə Fətəli Axundzadə tərəfindən qoyulan Azərbaycan komediyası uzun bir inkişaf yolu keçir, Axundzadənin əsasını qoyduğu yeni ədəbi növ, yeni janr görkəmli dramaturqların yetişməsinə səbəb olur, ərsəyə gələn onlarla komediya ölkənin bir çox teatrlarında tamaşaya qoyulur;

– Sosialist realizmi çərçivəsində Azərbaycan komedioqrafiyası bir sıra məhdudiyyətlərlə üzləşir, bəzi əsərlər senzuradan keçməyərək yasaqlanır, lakin bu əngəllərə baxmayaraq yeni əsərlər meydana çıxır;

– Sosialist realizmi çərçivəsindən çıxan dramaturgiya, xüsusilə də komediya janrı müstəqil xətt üzrə inkişaf edir, əvvəki illərdə qadağa qoyulmuş əsərlər bu dövr komediyanın əsas mövzusuna çevrilir, həmçinin komediya janrında yeni istiqamətlər formalaşır;

– Müstəqillik dövründə yaranan komediya mövzu, məzmun, janr, struktur, forma, konflikt, süjet xətti baxımından inkişaf edərək yeni bir mərhələyə qədəm qoyur;

---

[22] Məmmədova, R.B. Elçin komediyalarında bədii konflikt (Ah, Paris, Paris!.. ) // – Bakı: Dil və ədəbiyyat, – 2019. №1, – s. 209-211; Müstəqillik dövrü Azərbaycan komediyasında "dəlilik" anlayışı // XVI Respublika Elmi Qaynaqları konfransı. – Bakı: Elmi Tədqiqat Beynəlxalq onlayn elmi jurnal, – 12 mart, – 2024. – s.27-30.

– Azərbaycan komediyası janr və forma baxımından zənginləşir, yeni növlərin yaranmasına səbəb olur. Bu mərhələdə mistik-psixoloji, fantastik, komedik, məzhəkə, tragikomik, oyun, absurd, antikomediya, komik faciə, qratesk, fars, ekzotik komediya , teatral komediya, epataj komediya, mənzum komediya, mini-fars kimi janr və formalardan istifadə olunur;

– Bu dövr dramaturgiyada simvollardan dramaturqların yaradıcılığında tez-tez istifadə olunur, diqqət yetirilməsi əsas məsələlər simvollarla üstüörtülü şəkildə təsvir olunur;

– Komediyada sosial-mənəvi və ailə-məişət problemlərinə daha çox yer verilir. Vətənpərvərlik mövzusuna da toxunulur;

– Komedioqrafiyada inkişaf yalnız əsərlərin mövzu və problematikası, forma və struktrunda deyil, həmçinin monoloqlarda, dialoqlarda və ifadə vasitələrinin imkanlarının genişliyində və çoxşaxəliliyində özünü büruzə verir;

– Müasir dövrə məxsus komediyalarda yenilik dialoq və monoloqlarla yanaşı, remarkalarda da görünür. Əgər əvvəlki dövlərə məxsus komediyalarda remarkaların sayı az idisə, müstəqillik dövrü komediyalarda remarkaların kəmiyyət və keyfiyyəti, eləcə də funksionallığı artır;

– Müstəqillik dövrünə aid dramaturgiyada postmodernist üslubda komediyalar qələmə alınır, dramaturgiyamız daha da zənginləşir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı əsərlərində əks olunmuşdur:**


1. Elçin komediyalarında bədii konflikt (Ah, Paris, Paris!.. ) // – Bakı: Dil və ədəbiyyat, – 2019. №1, – s. 209-211.
2. Əli Əmirli komediyasının xüsusiyyətləri // Doktorantların və gənc tədqiqatçıların XXIII Respublika Elmi Konfransının Materialları, II hissə, – Bakı: AzMİU, – 3-4 dekabr, – 2019. – s. 115-117.

3. Особенности драматургии Эльчина // Сборник статей по материалам LII Международной научно-практической конференции. Инновационные подходы в современной

науке, – Москва: – 2019. №16 (52), – s.47-50.

4. Aqşin Babeyev, Xeyrəddin Qoca yaradıcılığında müstəqillik dövrünün təcəssümü // – Bakı: Filologiya məsələləri, – 2024. №2, – s. 498-504.
5. Azərbaycan komedioqrafiyasının inkişaf tarixi // Elm və təhsilin əsasları VII Beynəlxalq elmi konfrans, – Bakı: Elmi Tədqiqat Beynəlxalq onlayn elmi jurnal, – 9 aprel, – 2024, – s. 42-45.
6. Azerbaijani comedy of the period of independence: features of the theme and content // –Russia: Modern humanities success. – 2024. №2. – s. 13-19.
7. Əli Əmirli komediyalarında dövrün bədii-estetik təcəssümü// – Bakı: Dil və ədəbiyyat, – 2024. №1, – s.190-193.
8. "Kamal Abdullanın "Casus" komediyasında tarixi qəhrəmanlıq motivləri komediya müstəvisində" // – Bakı: Mütərcim, – 2024. №1, – s. 408.
9. Komediya janrı və onun inkişaf tarixi // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, – 2024. №1, – s.195-199.
10. Müstəqillik dövrü Azərbaycan komediyasında "dəlilik" anlayışı // XVI Respublika Elmi Qaynaqları konfransı, – Bakı: Elmi Tədqiqat Beynəlxalq onlayn elmi jurnal, – 12 mart, – 2024, – s. 27-30.
11. The reflection of social problems in Azerbaijani comedy of the independence period // Collection of materials of the İnternational Scientific and Practical conference on the topic "Development of philology: innovation, methodology and applied research", – Toshkent: – 5 may, 2026. – s. 560-563.

Dissertasiyanın müdafiəsi 16 oktyabr 2026-cı il tarixində saat 14 00-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən FD 1.31 qeydiyyat nömrəli Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1001, Bakı şəhəri. İstiqlaliyyət küçəsi, 53.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 9 sentyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.07.2026

Kağızın formatı: A5

Həcm: 37626

Tiraj: 100